● Unudulmazlar

# Andına sadiq qaldı

**İkinci Qarabağ müharibəsi başlayanda cəsur oğullarımız silaha sarılaraq erməni işğalçılarına qarşı mübarizəyə qalxdılar. Qanlı döyüşlərdə düşmənə qalib gələrək xalqımıza Zəfər sevinci yaşatdılar.**




Vətənin müdafiəsinə qalxan oğullardan biri də polkovnik-leytenant Elzamin Təhməzov idi. O, 26 oktyabr 1979-cu ildə Bərdə rayonunun Şirvanlı kəndində dünyaya göz açmışdı. Orta təhsilini başa vurduqdan sonra zabit olmaq arzusu ilə Heydər Əliyev adına Hərbi İnstituta qəbul olmuşdu. Hərbi bilikləri dərindən öyrənən Elzamin təhsilini başa vurduqdan sonra leytenant rütbəsi alaraq gənc zabit kimi xidmətə başlamışdı. Daim təcrübə və səriştəsini artıran E.Təhməzov dəfələrlə Amerika, Almaniya, Pakistan, İraq, Sloveniya, Türkiyə, həmçinin NATO təlimlərində ölkəmizi layiqincə təmsil etmişdi. Uzaq və yaxın səfərlərdən geriyə böyük uğurlarla dönmüşdü.

İllər ötüb arxada qalmışdı. Artıq Elzamin polkovnik-leytenant rütbəsində idi. Vətənə ürəkdən bağlı olan zabit torpaqlarımızın uzun illərdən bəri erməni işğalında qalmasından çox rahatsız idi. E.Təhməzov ölkəmizin ərazi bütövlüyünün təmin olunacağı günü səbirsizliklə gözləyirdi. Yaxşı bilirdi ki, düşmən torpaqları sülh yolu ilə qaytarmayacaq. Vətən uğrunda döyüşmək, vuruşmaq lazımdır.

27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda polkovnik-leytenant Elzamin Təhməzov ön sıralarda idi. Suqovuşan kəndinin azadlığı uğrunda döyüşürdü. Erməni işğalçıları bu istiqamətdən daha güclü hücuma keçmişdi. Ordumuzun zabit və əsgərləri düşmən hücumunun qarşısını almaq üçün cəsarətlə vuruşurdular. Yağıların mövqeləri, dayaq məntəqələri dəqiq atəş zərbələri ilə məhv edilirdi. Nə qədər çətin və gərgin olsa da, düşmənin qarşısı qətiyyətlə alınırdı. İşğalçılar müxtəlif istiqamətlərdən hücuma keçərək döyüşçülərimizi mühasirəyə almağa çalışırdılar. Elzamin bu döyüşdə böyük igidlik göstərdi, hünəri ilə ad-san qazandı.

Təəssüflər olsun ki, cəsarətli zabit döyüşlərin həlledici anında düşmən silahının hədəfinə tuş gəldi. Vətən müharibəsinin ikinci günü - sentyabrın 28-də müdafiəsinə qalxdığı Suqovuşan kəndi uğrunda gedən döyüşlərdə şəhid oldu. Əks-həmlə əməliyyatlarının qızğın vaxtında cəsur zabitin yaxınlığına yağıların atdığı mərmi düşdü. Elzaminin uğurla başlayan döyüş yolu beləcə yarımçıq qaldı.

Yaxınları, əzizləri acı göz yaşları içində Azərbaycan Ordusunun cəsur zabitini 41 il əvvəl dünyaya göz açdığı Bərdə rayonundakı Şəhidlər xiyabanında torpağa tapşırdılar.

Polkovnik-leytenant Təhməzov Elzamin Kamal oğlu Vətən müharibəsində göstərdiyi igidliyə görə 3-cü dərəcəli "Rəşadət" ordeninə və "Vətən uğrunda" medalına layiq görülüb.

Torpaqlarımızın azadlığı uğrunda canından keçmiş zabit Elzamin Təhməzovun ailəsində iki qız - Aysel və Aysu böyüyür. Onlar həmişə atalarını qəhrəman kimi xatırlayacaq, onunla fəxr edəcəklər.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 9 fevral, № 28.- S.15.